# Gənc və istedadlı musiqişünas

*Məqsədi və ona çatmaq üçün zəhməti olmadan heç bir insan yaşaya bilməz.*

*F.Dostoyevski*

Azərbaycan milli musiqisinin sərhədlərimizi aşaraq dünyaya yayılmasında, bəşər övladının maddi-mənəvi sərvətinə çevrilməsində bəstəkarların, ifaçıların müstəsna xidmətləri olduğu kimi, musiqişünaslar da böyük rol oynamışlar. Musiqişünasların bir neçə nəslinin istedadlı nümayəndələri XX əsrdə Azərbaycan musiqisinin yüksələn xətlə inkişafı və ümumdünya miqyasında tanınıb nüfuz qazanmasının təminatçılarıdır. Musiqişünaslıq məktəbimizin təşəkkül tapdığı zamandan indiyə qədər tərəqqidə olan gözəl ənənələri bu gün, XXI əsrdə yaşadan və davam etdirən musiqişünaslar içərisində də müxtəlif nəsillərin nümayəndələri vardır. Musiqişünaslar nəslinin layiqli davamçılarından biri Azərbaycan Bəstəkarlar İttifaqının və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, musiqişünas Nərgiz Qulamovadır. Bakı şəhərində anadan olan N.Qulamova uşaq yaşlarından incəsənətə böyük maraq göstərib. O, Fikrət Əmirov adına Uşaq İncəsənət Məktəbinin fortepiano sinfində dərs alıb. Asəf Zeynallı adına Musiqi Texnikumunun Tarix-nəzəriyyə fakültəsinin musiqişünaslıq ixtisasına qəbul olunub, oranı bitirdikdən sonra, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tarix-nəzəriyyə fakültəsinin musiqişünaslıq ixtisası üzrə bakalavr və magistr pilləsini fərqlənmə diplomu ilə bitirib.

N.Qulamova respublika və beynəlxalq elmi konfranslarında çıxışlar edib. Bir sıra elmi məqalə və müsahibələrin müəllifidir. Məqalələri respublikada və xarici ölkə elmi jurnallarında - «Musiqi dünyası», «Mədəniyyət/Culture», «Konservatoriya», «Qobustan», «Harmony» (международный музыкальный культурологический журнал), «Rast» (uluslararası müzikoloji dergisi) elmi jurnallarında, «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Azərbaycan mədəniyyəti və incəsənəti», «İncəsənət», «Kaspi» qəzetlərində işıq üzü görüb.



Sağdan: Lalə Qulamova, Nərgiz Qulamova, Raya Abbasova, Zemfira Qafarova

Qeyd edim ki, diqqətimi çəkən məqalələri sırasında, «Heydər Əliyev Fondunun Azərbaycan muğam sənətinin inkişafında rolu», «Azərbaycan muğamşünaslığının inkişaf yolları», «Üzeyir bəy Hacıbəyli ənənələrini sədaqətlə davam etdirən varislər», «Lalə Qulamovanın

pedaqoji irsi», «Orkestr uğurları davam etdirir - Teymur Göyçayev», «Azərbaycan Bəstəkarlar İttifaqı - Musiqi Festivalı - 85», «Muğam sənətinin inkişafında tədris proqramlarının əhəmiyyəti» və onlarla digərləri vardır.

İstedadlı və gənc musiqişünas N.Qulamova «Bəstəkar Azər Dadaşovun simfonik yaradıcılığına bir baxış» kitabının müəllifidir. Bu kitabda A.Dadaşovun I, III, VI, VIII simfoniyaları təhlil olunur və üslub xüsusiyyətləri, musiqi dili, simfonizmin təfsiri araşdırılır.

**AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQININ DƏSTƏYİ İLƏ İŞIQ ÜZÜ GÖRƏN «SEYRAN QAFAROV - MƏQALƏLƏR, MÜSAHİBƏLƏR, KONFRANS MATERİALLARI» ADLANAN KİTABI İSƏ MARAQLI BİR TÖHFƏDİR**

Azərbaycan Bəstəkarlar İttifaqının dəstəyi ilə işıq üzü görən «Seyran Qafarov - məqalələr, müsahibələr, konfrans materialları» adlanan (Tərtib: professor Z.Qafarova) kitabı isə maraqlı bir töhfədir. Bu kitabda müxtəlif illəri əhatə edən məqalələr, müsahibələr və konfrans materialları öz əksini tapır.

Bir ziyalı ocağının yeni parlayan ulduzu Nərgiz Qulamova anası musiqişünas, pedaqoq Lalə Qulamovanın yolunu davam etdirir. L.Qulamova 40 ildən çoxdur İncəsənət Məktəbində solfecio və musiqi ədəbiyyatı fənlərindən dərs deyir. N.Qulamova da solfecio və musiqi ədəbiyyatı fənləri üzrə ilk musiqi təhsilini anası Lalə xanım Qulamovadan alıb. Odur ki, belə bir mühitdə böyümək Nərgizin gələcək sənət seçiminə öz təsirini göstərmişdir.

Mustafa Kamal Atatürkün belə bir deyimi var: "Böyük uğurlar qiymətli anaların böyütdükləri övladlarının əməllərinin bəhrəsidir".

Bakı Musiqi Akademiyasının məzunu N.Qulamova bakalavr və magistr diplom işini respublikanın Əməkdar incəsənət xadimi, professor Şəhla Mahmudova-Həsənovanın rəhbərliyi altında yazıb. Şəhla Mahmudova-Həsənova kimi gözəl sənətkardan dərs alması onun xoşbəxtliyidir. Tələbələr içərisində Nərgizin özünəməxsus yeri olub, yalnız bilikli, zəhmətkeş, təmənnasız müəllimlər belə istedadlı mütəxəssislər yetişdirə bilərlər.

N.Qulamova 2019-cu ildə «Azərbaycan musiqi tarixi və nəzəriyyəsi sahəsində apardığı tədqiqatlarına və elmi-praktik konfranslarda etdiyi çıxışlarına görə» Azərbaycan Jurnalistlər Birliyinin Fəxri diplomu ilə təltif edilib.

Bakı Musiqi Akademiyasında tələbəlik illərindən konfranslardakı çıxışları, eyni zamanda yazdığı məqalələri, müsahibələri ilə fəal tələbə, daha sonra işlədiyi illərdən bəri nümunəvi bir işçi, pedaqoq, səmimi, etibarlı bir insan kimi tanıdığım tələbə yoldaşım Nərgiz bir musiqişünas, tədqiqatçı olaraq ənənələri bu gün yaşadıb, davam etdirənlər sırasındadır. Ona cansağlığı və daha böyük uğurlar diləyirəm! ❖

**Nuranə Zeynalova**
Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının müəllimi



Sağdan: Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova,
Xalq artisti, professor Tofiq Bakıxanov,
pedaqoq Lalə Qulamova və musiqişünas Nərgiz Qulamova